# Onlar 700 bal toplayıblar

**Artıq bir neçə ildir ki, ali məktəblərə qəbul imtahanlarında ən yüksək – 700 bal nəticəsi qeydə alınır. Yaranmış ənənə bu il də davam edir. Belə ki, Dövlət İmtahan Mərkəzinin ölkənin ali təhsil müəssisələrinə qəbul olmaq istəyən cari ilin məzunları üçün I və IV ixtisas qrupları üzrə keçirdiyi qəbul imtahanlarında 6 nəfər abituriyent maksimum – 700 bal toplayıb. Onlardan 3-ü I, 3-ü isə IV ixtisas qrupu üzrə imtahan verənlərdir. Ən yüksək nəticəyə imza atmış gənclərimizi təbrik edir və gələcək təhsillərində uğurlar arzulayırıq. Aşağıda onları oxucularımıza təqdim edirik.**



**Nadir Faiq oğlu Sultanlı**

"Ankara məktəbi" məktəb-liseyinin məzunudur. I ixtisas qrupu üzrə 700 bal toplayıb. Bizimlə söhbətində Nadir imtahanlara yaxşı hazırlaşdığını, buna görə də ən yüksək nəticəni gözlədiyini bildirdi. Məktəb-liseydə bütün fənləri yaxşı oxuyub. Lakin texniki fənlərə xüsusi həvəsi olub. Kimya mühəndisliyi ixtisasını seçmək istədiyindən məqsədi yüksək bal toplamaq olub və bunun üçün öz üzərində çox çalışıb. O, müəllimlərinin, dostlarının və ailəsinin ona göstərdiyi dəstəyin 700 bal toplamasında böyük rolu olduğunu vurğulayır. N.Sultanlı gələcəkdə magistr təhsilini Böyük Britaniyada almaq istədiyini deyir.



**Tural Şəfahət oğlu Ağayev**

Türkiyə Diyanət Vəqfi Bakı Türk Liseyinin məzunudur. Tural deyir ki, indiyədək liseyləri üzrə 700 bal toplayan 13-cü məzundur. Turalgilin ailəsi Zəngilan rayonundan olan məcburi köçkündür. Bakıda anadan olub. Hazırlaşdığı illərdə Turala dostlarından, ailəsindən və müəllimlərindən hər zaman dəstək gəlib. O deyir ki, maksimum bal toplamaq üçün sistemli şəkildə hazırlaşmaq lazımdır. Bakı Türk Liseyinin mənə verdiyi təhsil sayəsində bu gün 700 bal nəticəsinə nail oldum. Müəllimlərim bunu məndən gözləyirdilər.

Tural mexanika mühəndisliyi ixtisasını seçmək istəyir. Deyir ki, "Ölkəmizdə təyyarə istehsalı ilə bağlı gələcəkdə belə mühəndislərə ehtiyac olacaq. Magistr təhsilini də alıb yaxşı mütəxəssis olmaq istəyirəm".



**Səbinə Emil qızı İsmayılova**

Qazax rayonu Canallı kənd tam orta məktəbinin məzunudur. IV ixtisas qrupunda imtahan verən Səbinə də bütün test suallarını düzgün cavablandıraraq maksimum nəticə göstərib.

Səbinə nəticəsində müəllimlərinin əməyinin çox olduğunu deyir. Həkimliyi özünə gələcək ixtisas kimi seçən gənc qız təkcə imtahanlardan yüksək bal toplamaq üçün deyil, yaxşı həkim olmaq üçün də dərin ixtisas biliklərinə və geniş dünyagörüşünə sahib olmağın zəruriliyini aydın başa düşür. Ona görə də fikri daxil olduğu Azərbaycan Tibb Universitetində yaxşı oxumaqdır. Səbinə X sinifdə oxuyarkən kimya fənni üzrə dünya olimpiadasında iştirak edərək 200 şagird arasında 13-cü olub. IX sinifdə riyaziyyat üzrə olimpiadada rayon birincisi olub.



**Rəvan Rauf oğlu Nəzərəliyev**

I ixtisas qrupu üzrə qəbul imtahanlarında 700 bal toplayan Rəvan Xırdalan şəhər 5 nömrəli tam orta məktəbin məzunudur. "Orta məktəbdə qiymətlərim hər zaman yaxşı olub", - deyir Rəvan. Qəbul imtahanlarına ciddi hazırlaşsa da, 700 bal toplayacağına inanmırmış. İxtisas seçimi zamanı Bakı Ali Neft Məktəbini seçmək fikrindədir. Onun qənaəti belədir ki, imtahanda təsadüflər yox, mükəmməl hazırlıq mühüm rol oynayır. Rəvan məhz belə hazırlıq nümayiş etdirib. Bunun üçün o, müəllimlərinə və valideynlərinə borclu olduğunu deyir. Qeyd edək ki, Rəvanın əkiz qardaşı Nurlan da imtahanda yüksək - 685 bal toplayıb.



**Ağalətif İsaq oğlu Lətifov**

İsmayıllı şəhər 5 nömrəli tam orta məktəbin məzunudur. Ən yüksək nəticəni IV ixtisas qrupu üzrə qəbul imtahanlarında göstərib. Azərbaycan Tibb Universitetinə daxil olmağı qarşısına məqsəd qoyan Ağalətifin dediyinə görə, hazırlıq dövründə, xüsusən də X-XI siniflərdə 4-cü ixtisas qrupu üzrə qəbul imtahanlarına düşən fənlərə daha çox üstünlük verib. Ən yüksək bal toplayan gəncin fikrinə görə, təkcə X-XI siniflərdə yaxşı oxumaqla yüksək nəticə əldə etmək olmaz. Bunun üçün gərək bütün siniflərdə yaxşı oxuyasan. Ağalətif özü məhz belə oxuyub. Ötən il respublika fənn olimpiadasında biologiya üzrə III yeri tutaraq bürünc medal alıb.

Uşaq həkimi olmaq istəyən Ağalətif Azərbaycan Tibb Universitetini bitirdikdən sonra təhsilini xaricdə davam etdirməyi nəzərdə tutur.



**Orxan Əzim oğlu Zülfüqarov**

Şəmkir rayonu Natiq Süleymanov adına Çinarlı qəsəbə tam orta məktəbinin məzunudur. Orxanın bildirdiyinə görə, qəbul imtahanlarında 700 bal toplayacağına əmin imiş. O deyib: "Çalışdım ki imtahanda diqqətli olum və mexaniki səhvlərə yol verməyim. İstədiyimə də nail oldum. Atam riyaziyyat müəllimi olduğu üçün daim mənimlə məşğul olub. Digər fənlər üzrə isə iki il ərzində hazırlaşmışam".

O.Zülfüqarov sənədlərini hansı ali məktəbə verəcəyini hələ müəyyənləşdirmədiyini deyir: "Oxuyacağım ali təhsil ocağını hələ seçməmişəm. Ola bilsin təhsilimi xaricdə davam etdirim".

**Hazırladılar: Y.ƏLİYEV, Ş.CƏFƏROV,**
**"Azərbaycan müəllimi"**